

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 15 (22.926)

24 yanvar 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda interaktiv iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Dövlətimizin başçısı iclasda çıxış edib və sualları cavablandırıb.

* * *

Prezident İlham Əliyev yanvarın 23-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb

* * *

Həmin gün dövlətimizin başçısı Davosda Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb.

* * *

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “SUEZ GROUP” şirkətinin baş icraçı vitse-prezidenti və “MEDEF International”ın Fransa-Azərbaycan Biznes Şurasının sədri xanım Marie-Ange Debon ilə görüşüb.



## Naxçıvan Muxtar Respublikası investisiya reytinqinin lideridir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqini hazırlayıb. Azərbaycan regionlarının investisiya reytinqinin lideri ən yüksək ümumi bal toplamış Naxçıvan Muxtar Respublikası olub.

Yanvarın 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası davamlı inkişaf yoluna qədəm qoyub. İqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam etmişdir. Ümumi daxili məhsulun həcmi artaraq 2 milyard 701 milyon 663 min manat olmuş, 2017-ci ildə 967 milyon manatdan artıq sənaye məhsulu istehsal edilmişdir. Əgər 1990-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, hazırda bu müəssisələrin sayı 7,9 dəfə artaraq 442-yə çatmışdır. Muxtar respublikada 372 növdə məhsulun istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olmuşdur. Son illər güzəştli dövlət maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 254 heyvandarlıq, 84 quşçuluq, 15 balıqçılıq, 104 arıçılıq, 65 bağçılıq, 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min ton olan 31 soyuducu anbar, ümumi sahəsi 128 min 162 kvadratmetr olan 21 istixana kompleksi, 19 taxıl emalı müəssisəsi yaradılmışdır.

Qeyd olunmuşdur ki, məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə son illər rayon və kəndlərdə 714 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılmışdır. Bütün bunların nəticəsidir ki, 2017-ci ildə ümumilikdə aqrar sektorda 453 milyon 365 min manatlıq məhsul istehsal olunmuşdur. Ümumilikdə, son illər muxtar respublika iqtisadiyyatına 8,5 milyard manatdan çox investisiya yönəldilmiş, 12 mindən çox müxtəlif təyinatlı obyekt istifadəyə verilmişdir. Əvvəllər muxtar respublikada cəmi bir elektrik stansiyası vardısa, bu gün enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılmışdır. Ötən il müasir yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 70,5 kilometr uzunluğunda avtomobil yolları salınmış, 12 körpü tikilmiş və ya yenidən qurulmuş, muxtar respublikaya xarici ölkələrdən 410 mindən çox turist gəlmişdir. Haliyədə muxtar respublikanın yaşayış ərazilərinin 98 faizi genişzolaqlı, 99 faizi isə simsiz internet xidməti ilə təmin olunmuş, 4G mobil rabitə xidməti istifadəyə verilmişdir. 2000-ci ildən ötən dövr ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 1244 layihənin maliyyələşdirilməsinə 136 milyon 182 min manatdan çox güzəştli kreditlər ayrılmışdır. 2003-cü ildən ötən müddətdə muxtar respublika üzrə 71 mindən artıq yeni iş yerləri yaradılmışdır. Bu müddət ərzində muxtar respublikanın xarici ticarət dövriyyəsi 1995-ci illə müqayisədə 24,2 dəfə artaraq 2017-ci ildə 459 milyon 889 min ABŞ dollarına çatmış, xarici ticarətdə 386 milyon 751 min ABŞ dolları həcmində müsbət saldo yaranmış, 50-dən çox xarici ölkə ilə ticarət əlaqələri aparılmışdır.

“Caspian European Club”un sədrinin birinci müavini Telman Əliyev Naxçıvan Muxtar Respublikasının investisiya reytinqində ilk yeri tutmasını və bununla bağlı tədbirin Heydər Əliyev Muzeyində keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir.

Qeyd olunmuşdur ki, “Caspian European Club” dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. “Caspian European Club”un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. 2017-ci il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilmişdir.

Xüsusilə muxtar respublikada alternativ və bərpa olan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması, yüksək standartlara uyğun yeyinti məhsullarının istehsal olunması, müasir turizm infrastrukturu, biznes və investisiya mühiti üçün yaradılan şərait ekspertlər tərəfindən düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirilmişdir.



Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Ali Məclisin Sədrinə “Caspian European Club”un mükafatını təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Hər bir ölkə inkişafa nail olmağa çalışır. Lakin o ölkədə inkişaf təmin olunur ki, orada sabitlik, müəyyən olunmuş inkişaf yolu və dövlət-xalq birliyi olsun. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda inkişaf, sabitlik və dövlət-xalq birliyi təmin olunub. Ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub.

Ali Məclisin Sədri demişdir: Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlar Azərbaycanın hər bir bölgəsini əhatə edib. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının qəbulu və icra olunması ölkəmizdə tikinti-quruculuq işlərinin həcmini xeyli artırmış, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, əhalinin rifah halı yaxşılaşmışdır. Ötən dövrdə istifadəyə verilən məktəb binaları, olimpiya idman kompleksləri, xəstəxanalar, salınan yollar, yaradılan yeni istehsal müəssisələri, açılan yüz minlərlə iş yerləri bir daha göstərir ki, Azərbaycanda inkişafın mərkəzində insan amili dayanır. Naxçıvan Muxtar Respublikasının inkişafı da ölkə başçısının müəyyən etdiyi ***“Güclü dövlət, yüksək rifah”*** strategiyasına əsaslanır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.***

Qeyd olunmuşdur ki, bu gün ümummilli liderimizin arzuları ölkə Prezidentinin diqqət və qayğısı ilə həyata keçirilir. 25 ildən artıq bir dövrdə blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada sabitlik və inkişafa nail olunub, etibarlı müdafiə sistemi yaradılıb. Daxili imkanlardan səmərəli istifadə və həyata keçirilən iqtisadi islahatlar nəticəsində ərzaq və enerji təhlükəsizliyi təmin edilib. Şəhər və rayon mərkəzlərindən ən ucqar dağ və sərhəd kəndlərinə qədər, bütün yaşayış məntəqələri qazlaşdırılıb, mənzillərə fasiləsiz elektrik enerjisi verilir, əhaliyə dayanıqlı rabitə və sürətli internet xidməti göstərilir.

Ali Məclisin Sədri demişdir: Ölkə Prezidentinin qayğısı ilə bu gün Azərbaycanın bütün regionlarında davamlı inkişaf təmin edilib. Sağlam rəqabət mühiti formalaşıb.

Ardı 2-ci səhifədə

Yaradılmış inkişafın nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır. Təbii ki, muxtar respublikamız bu uğura ölkə başçısının göstərdiyi böyük diqqət və qayğı, ümummilli liderin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda çəkilən zəhmət sayəsində nail olmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını, hörmət və ehtiramını bildirmişdir.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərdə əməyi olan bütün muxtar respublika sakinlərinə, sahibkarlara və dövlət qulluqçularına, əmin-amanlığın təmin olunmasındakı xidmətlərinə görə hüquq-mühafizə orqanlarına, ordu, birləşmə və hissələrin şəxsi heyətlərinə təşəkkür etmişdir.

Ali Məclisin Sədri sağlam rəqabət mühiti formalaşdırdığına, nəticələrin düzgün qiymətləndirilməsinə görə "Caspian European Club"a da təşəkkür etmiş və əminliyini bildirmişdir ki, reytinqin nəticələri muxtar respublikada yeni investisiyalar üçün geniş imkanlar açacaq, Naxçıvan Muxtar Respublikası bundan sonrakı illərdə də Azərbaycanın inkişafına öz töhfəsini verəcəkdir.

Muxtar respublika ictimaiyyəti və ziyalılar adından çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev demişdir ki, Naxçıvan ölkəmiz üçün həmişə strateji əhəmiyyətli bir diyar olub. Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil üstün yer tutub. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycanın bütün regionları kimi, Naxçıvanın da hərtərəfli inkişafına daim diqqət yetirmiş və hər səfərində burada aparılan işlərin yüksək səviyyədə və zövqlə görülməsini dəfələrlə vurğulamışdır.

İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi diqqət və qayğıya görə muxtar respublikanın ictimaiyyəti və ziyalıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün investisiya reytinqində yüksək bal toplayaraq ilk yeri tutması burada aparılan davamlı sosial-iqtisadi inkişafın məntiqi nəticəsidir. Ziyalılar və elmi müəssisələrin işçiləri sadə adamlarla tez-tez ünsiyyətdə olurlar. Xoşdur ki, bütün sahələrdə, o cümlədən sosial sahələrdə həyata keçirilən tədbirlər insanlarda əminlik yaradır. Muxtar respublikada əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən biridir. Bu gün səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri, mürəkkəb cərrahiyyə əməliyyatları aparılır ki, 20 il bundan əvvəl biz bunları ancaq arzu edə bilərdik. Muxtar respublikada 200-dən çox təhsil müəssisəsi yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Muxtar respublikada təhsil sahəsində görülən işlərin nəticəsidir ki, ölkəmizin ali təhsil sistemində ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Təhsil Mərkəzləri yaradılmışdır. Akademiyanın Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında distant dərslər keçirilir, elmi dərəcəli müəllimlərin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil olunur. 90-cı illərin ortalarında Naxçıvan Muxtar Respublikasında cəmi 4 elmlər doktoru, 162 fəlsəfə doktoru vardısa, hazırda 2 akademik, akademiyanın 9 müxbir üzvü, 40-dan çox elmlər doktoru, 300-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir. Milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılmasına böyük diqqət göstərilmiş, 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmış və pasportlaşdırılmış, 60-dan çox tarix və mədəniyyət abidəsi əsaslı şəkildə bərpa edilmişdir. Muxtar respublikanın inkişaf və quruculuq mərhələsinə gəlib çatması asan başa gəlməyib. Görülən işləri gözlərimiz önünə gətirdikdə böyük zəhmət, düşünülmüş siyasət, düzgün və ədalətli idarəetmə, uzaqgörənlik, ümummilli lider Heydər Əliyev ideyalarına sadiqlik görürük. Budur Naxçıvan Muxtar Respublikasını inkişafa qovuşduran əsas amillər.

İsmayıl Hacıyev əldə edilmiş yüksək nailiyyətlərə görə muxtar respublikanın ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan qarnizonunda yekun müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan qarnizonu qoşunlarında 2017-ci tədris ilində döyüş hazırlığının, döyüş və döyüşə hazırolmanın, nizam-intizamın vəziyyətinə dair müşavirə keçirilib.*

Əvvəlcə muxtar respublikamızda ordu quruculuğundan bəhs edən "Ordumuzun təməl ünvanı Naxçıvan" adlı film nümayiş etdirilib.

Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev 2017-ci tədris ilində qoşunlarda döyüş hazırlığının, döyüş və döyüşə hazırolmanın, nizam-intizamın vəziyyətini təhlil edərək məruzə edib. Bildirilib ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Silahlı Qüvvələrimiz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında dünyanın qabaqcıl, regionumuzun isə lider orduları səviyyəsinə yüksəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir. Ali Baş Komandan İlham Əliyevin 2017-ci il yanvarın 11-də Naxçıvana səfəri zamanı Əlahiddə Ümumqoşun Orduda əsgər yataqxanasının və əsgəri-məişət kompleksinin açılışını etməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi və Azərbaycan Respublikası müdafiə nazirinin iştirakı ilə iyunun 15-də Azərbaycan-Türkiyə "Birgə əməliyyat-taktiki təlimi"nin və oktyabrın 18-də Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25 illiyinə həsr edilmiş hərbi paradın keçirilməsi ötən ilin ən yaddaqalan tədbirləri olmuşdur. 2017-ci ildə motoatıcı, tank, artilleriya, xüsusi təyinatlı bölmələrin əsas fənlər üzrə döyüş hazırlığında saxlanılması və öyrədilməsi tapşırıqları uğurla yerinə yetirilib, bölmələrin döyüş potensialı və hərbi qulluqçuların praktiki vərdişləri təkmilləşdirilib. Əsas güc praktiki məşğələlərin sayının artırılmasına və hərbi kollektivlərin uzlaşmış fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilərək döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə praktik təlim və məşğələlər keçirilib. Naxçıvan qarnizonu qoşunları bütün bu tədbirlərdə qarşısında duran tapşırıqların öhdəsindən layiqincə gəlib. Hesabat ilində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti üzərlərinə düşən vəzifələri uğurla icra edib, 2017-ci ilin hazırlıq planında göstərilmiş tədbirlər tam yerinə yetirilib və Silahlı Qüvvələrdə döyüş hazırlığı, intizamın nəticələrinə görə Əlahiddə Ümumqoşun Ordu birinci yeri tutub. 2018-ci tədris ilində də Naxçıvan qarnizonunun qoşunları qarşılarında duran bütün tapşırıqları layiqincə yerinə yetirərək döyüş qabiliyyətini yüksəldəcək, Naxçıvan Muxtar Respublikasının müdafiə və mühafizəsini daha da təkmilləşdirib, onun təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı bir təhdidin qarşısını qətiyyətlə alacaqdır.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru, general-mayor Yaşar Həsənov, Hərbi Məhkəmənin sədri Qasım Əliyevin, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi, polkovnik-leytenant Ramin Əhmədovun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Asəf Quliyevin, fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimovun, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, polkovnik Səlim Niftəliyevin, Əlahiddə Ümumqoşun Ordunun idarə və şöbə rəislərinin 2017-ci tədris ilində görülmüş işlər və 2018-ci tədris ilində qarşıda duran vəzifələrlə bağlı məruzə və təklifləri dinlənilib.

Müşavirəyə Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev yekun vuraraq 2018-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlıq üzrə fəaliyyət istiqaməti, qarşıda duran məqsəd və vəzifələrə dair Ali Məclis Sədrinin tapşırıqlarını diqqətə çatdırıb.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş hərbi qulluqçulardan 4-nə "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalları, 1-nə qiymətli hədiyyə, 4 nəfərə "Fəxri Fərman" təqdim olunub, 5 nəfərə isə "Təşəkkür" elan edilib.

**Nəriman NƏCƏFOV**

## Növbəti seminar olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 45 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Naxçıvan Muxtar Respublikasının birinci-beşinci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri" və "Dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması" mövzularında seminar keçirilib.

Seminarda Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 7 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 2.5-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 11 yanvar tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının birinci-beşinci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri" təsdiq edilmişdir. Keçirilən seminarın məqsədi vakant dövlət qulluğu vəzifələrinin tutulması şərtləri və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanmasının yeni qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin diqqətə çatdırılması və bu işin qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsinin təmin edilməsidir.

İsmayıl Qəribli qeyd edib ki, vəzifə təlimatları dövlət qulluqçusunun tutduğu vəzifənin funksiyalarının təsvir edilməsi üçün tərtib edilir. Dövlət qulluqçusu fəaliyyətini vəzifə təlimatlarının tələblərinə uyğun olaraq həyata keçirməlidir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən vəzifə təlimatlarında hər hansı əlavə və dəyişiklik olduqda dövlət orqanı bu barədə məlumatları bir ay müddətində komissiyaya təqdim etməlidir.

Seminarda komissiyanın sektor müdiri Türkan Gülməmmədli çıxış edib, mövzularla bağlı slaydlar nümayiş olunub.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Muxtar respublikada 2017-ci ildə 5021 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

*Muxtar respublikada torpaqların elektron uçotunun aparılması və təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativliyin təmin edilməsi 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır.*

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda müəyyənləşdirilmiş vəzifələrin icrası üçün Şərur rayonunun Dəmirçi, Maxta, Qarxun, Şəhriyar, Vərməziyar, Tumaslı, Vayxır, İbadulla və Ərəbyengicə, Kəngərli rayonunun Şahtaxtı, Qarabağlar və Xok, Babək rayonunun Babək qəsəbə, Məmmədrza Dizə, Yarımca və Cəhri, Culfa rayonunun Bənəniyar, Xanəgah və Əlincə, Ordubad rayonunun Dəstə, Yuxarı Əylis və Aşağı Əylis bələdiyyələrinin torpaqlarının qida maddələri ilə təmin olunma kartoqramları hazırlanmışdır. Əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə il ərzində Şərur rayonunun Çomaxtur, Şahbuz rayonunun Kiçikoba, Ordubad rayonunun Düylün və Sədərək rayonunun Sədərək kəndlərində maarifləndirici tədbirlər keçirilmişdir.

"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanının icrası ilə bağlı proqram təminatının hazırlanmasına başlanılmış, sistemə daxil ediləcək məlumatların modeli hazırlanmışdır. Ərazi vahidlərinin, inzibati ərazi dairələrinin, sahə inzibati ərazi dairələrinin, bələdiyyələrin, yaşayış məntəqələrinin sərhədləri, kənd təsərrüfatı yerləri, torpaq islahatına cəlb edilmiş kənd təsərrüfatı yerlərinin sərhədləri, meşə və kolluqlar, qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar haqqında məlumatlar hazırlanaraq komitənin elektron məlumat bazasına yığılmışdır.

Torpaq sahələrinin konturlarının çöl geodeziya ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi və parametrlərin torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsi məqsədilə müasir geodeziya-ölçü avadanlıqları vasitəsilə Naxçıvan şəhərinin, Şərur və Babək rayonlarının ərazilərində daşınmaz əmlak obyektlərinin plana alınması işləri aparılmışdır. Topoqrafik elementlərin, mühəndis-kommunikasiya xətləri və qurğularının, xüsusi qorunan ərazilərin, hidroqrafiya elementlərinin sərhədləri müəyyənləşdirilmişdir. Naxçıvan şəhərində 12 min 392 daşınmaz, Babək rayonunda 5812, Şərur rayonunda isə 3032 daşınmaz əmlak obyekti plana alınmışdır.

Muxtar respublika üzrə torpaq sahələrinin təyinatının istifadə vəziyyəti daim nəzarətdə saxlanılmış, aşkarlanmış qanunsuz istifadə faktları aktlaşdırılmış, torpaqların qanunsuz istifadəsinin aradan qaldırılması və qanunsuz tikililərin sökülərək torpaqların əvvəlki vəziyyətinə qaytarılması üçün müvafiq tədbirlər görülmüşdür. Muxtar respublika üzrə 50 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri hazırlanaraq dövlət reyestrinə daxil edilməsi üçün aidiyyəti üzrə göndərilmişdir. Şərur rayonunun 40 bələdiyyəsinin və Babək rayonunun bütün bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmış, kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmış və uçotu aparılmışdır.

Müxtəlif təşkilatların sifarişi ilə 480-dən artıq xəritə, plan və sxemlər hazırlanaraq aidiyyəti üzrə təhvil verilmişdir. İl ərzində, ümumilikdə, muxtar respublika üzrə 2086 torpaq sahəsi, 75 qeyri-yaşayış binası, 74 qeyri-yaşayış sahəsi, 921 mənzil, 1852 fərdi yaşayış evi, 13 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 5021 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Bu dövrdə muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 764 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 787 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Vətəndaşlara səyyar xidmətin göstərilməsi də davam etdirilmiş, il ərzində muxtar respublika üzrə 92 yaşayış məntəqəsində 899 vətəndaşın müraciətinə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların sosial müdafiəsinin güclənməsinə, səmərəli məşğulluq üçün əlverişli şəraitin yaradılmasına, özünüməşğulluq və peşə hazırlığı imkanlarının artırılmasına zəmin yaradıb. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dövlət proqramının icrası istiqamətində 2017-ci ildə də bir sıra tədbirlər həyata keçirilib.***

# Sosial siyasət strategiyası uğurla davam etdirilir



Belə ki, muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə nazirlik və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 2017-ci ilin əvvəlində “Naxçıvan Muxtar Respublikasında əmək bazarının vəziyyətinə dair məlumat” hazırlanaraq muxtar respublikanın əmək bazarında tələb və təkliflər müəyyənləşdirilib, təhlillər aparılıb. Aprel və sentyabr aylarında müxtəlif peşə istiqamətləri üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə 167 müəssisədə sorğu keçirilib. Sorğuların nəticələrinə əsasən müxtəlif peşə istiqamətləri üzrə kadrlara olan tələbat müəyyənləşdirilib.

Əmək bazarında əcnəbi işçilərə olan tələbatı da öyrənmək məqsədilə təhlillər aparılıb, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2018-ci il üçün əmək miqrasiyası kvotası təsdiq edilib. Kvota müvafiq iqtisadi fəaliyyət sahələri üzrə 500 yerdən ibarətdir.

Görülən işlər sırasında aktiv məşğulluq tədbirləri də əhəmiyyətli yer tutur. Belə ki, 2017-ci ildə 3330 nəfər məşğulluq mərkəzləri tərəfindən işaxtaran kimi qeydiyyata alınıb. 3353 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub.

Muxtar respublika üzrə 374 nəfər müvəqqəti işlərə, 280 nəfər işaxtaran isə sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilib. Bunlardan 832 nəfəri işlə təmin olunub. Tətil günlərində işləmək istəyən 40 tələbə mövsümi işlərə göndərilib. Hərbi xidmətdən yeni tərxis olunan şəxslərin məşğulluğunun təmin edilməsi də nəzarətdə saxlanılıb, bu qəbildən olan 33 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub, 1 nəfər isə peşə hazırlığına cəlb edilib.

Yeni iş yerlərinin yaradılmasında özəl sektorun əhəmiyyəti nəzərə alınaraq 2017-ci ildə Sahibkarlığa Kömək Fondu hesabına 18 layihənin maliyyələşdirilməsinə 458 min 700 manat vəsait yönəldilib. Bəhs olunan dövrdə özəl investisiya qoyuluşu hesabına kiçik və orta sahibkarlığın inkişafı sahəsində 17 layihənin maliyyələşdirilməsi başa çatdırılıb, 3 layihənin həyata keçirilməsi davam etdirilib. Bu dövrdə 615 yeni iş yeri yaradılıb.

Muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən sənayenin inkişafına 566 min, tikinti sektoruna 70 min, ticarətin inkişafı üçün 6 milyon 361 min 400, nəqliyyat və rabitə sahələrinə 1 milyon, kənd təsərrüfatının inkişafına isə 2 milyon 256 min 300 manat həcmində güzəştli şərtlərlə kredit verilib. Kreditlərin 1 milyon 962 min manatı Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına ödənilib.

Ötən dövrdə yerli xammal ehtiyatlarından istifadəyə, o cümlədən müasir texnologiyaların tətbiqi yolu ilə tələbatı idxal hesabına ödənilən muxtar respublikanın rayon, qəsəbə və kəndlərinin xammal və əmək ehtiyatları nəzərə alınmaqla yeni istehsal sahələrinin fəaliyyətə başlaması məqsədilə müxtəlif təyinatlı 55 layihə hazırlanıb və sahibkarlara təqdimatı keçirilib. Yerli resurslara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin yaradılması istiqamətində 38 müəssisə açılıb, 8 müəssisənin yaradılması istiqamətində işlər davam etdirilib.

Muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması, yeni istehsal və xidmət sahələrinin yaradılması məqsədilə banklar və kredit təşkilatları tərəfindən iqtisadiyyatın real sektorunun maliyyələşdirilməsi 2017-ci ildə də davam etdirilib, il ərzində real sektora 10 milyon 253 min 700 manat məbləğində kredit dəstəyi göstərilib.

Hesabat ilində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən əmək və xammal ehtiyatları nəzərə alınmaqla 8 müxtəlif təyinatlı, kiçikhəcmli layihə hazırlanıb və iqtisadi səmərəliliyi araşdırılaraq sahibkarlara təqdim olunub. Muxtar respublikanın rayonlarında il ərzində 24 fərdi təsərrüfat və kiçik müəssisə fəaliyyət göstərməyə başlayıb, 1 kiçik müəssisənin yaradılması istiqamətində işlər davam etdirilib. Ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək məqsədilə 13 təsərrüfata 243 min manat dövlət maliyyə dəstəyi göstərilib.



Muxtar respublikanın rayon və kəndlərində əsas məşğulluq istiqaməti olan əkinçilik və heyvandarlığın inkişafı üçün banklar və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı sahəsinə 2017-ci ilin yanvar-dekabr ayları ərzində 2 milyon 256 min 300 manat kredit verilib.

Hesabat dövründə sahibkarlığa yeni başlamaq istəyən şəxslərə müvafiq kursların keçirilməsi üçün tədris planlarının hazırlanması diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə İqtisadiyyat Nazirliyi tərəfindən “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində sahibkarlığa yeni başlamaq istəyən 63 müdavim üçün kurs təşkil olunub. Bununla yanaşı, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən rəsmi internet saytlarından alınmış materiallar əsasında muxtar respublikada fəaliyyət göstərən 84 müəssisəyə 3630 halda iqtisadi yönümlü informasiyaların çatdırılması təmin edilib. Adıçəkilən nazirliyin Operativ Əlaqə Sistemi və “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən sahibkarlara 54 halda şifahi məsləhət xidməti göstərilib. Həmçinin İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə təşkilatçılığı ilə müxtəlif vaxtlarda muxtar respublikanın üç rayonunda arıçılıq təsərrüfatları sahibləri ilə görüş təşkil edilib, yaradılması nəzərdə tutulan layihələrin təqdimatları həyata keçirilib.

Muxtar respublikanın bütün rayonlarında xidmət mərkəzlərində mövcud olan vakansiyalar üzrə çalışmaq istəyən şəxslər müəyyənləşdirilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə 6 kurs təşkil olunub. Vakant yerlərdə 33-ü bərbər, 30-u bərbər-manikürçü və 9-u dərzi olmaqla, ümumilikdə, 72 nəfər işlə təmin edilib.

Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili üzrə müvafiq dövr ərzində nazirlik tərəfindən təşkil edilmiş 27 kursu, ümumilikdə, 343 nəfər bitirib. Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində isə ilk peşə ixtisası qruplarına 2930 müdavim qəbul olunub. Təşkil edilmiş peşə kurslarına, ümumilikdə, sağlamlıq imkanları məhdud 49 şəxs cəlb edilib.

2017-ci il ərzində xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə nazirlik yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində müxtəlif peşələr üzrə kurslara 151 nəfər, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində məhkumlar üçün aşpaz köməkçisi və bərbər peşələri üzrə kurslara 24 nəfər cəlb edilib. Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrini isə bufetçi, dayə, bərbər və bərbər-manikürçü ixtisasları üzrə 216 nəfər bitirib.

Bəhs olunan dövr ərzində nazirlik tərəfindən əmək bazarının tələblərinə uyğun milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarının təşkili məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçı və ağac üzərində oyma peşələri üzrə kurslar təşkil edilib. İqtisadiyyat Nazirliyi tərəfindən “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyində yaradılmış Xalq yaradıcılığı emalatxanasının tərkibində ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq və dekorativ-tətbiqi sənət kimi qədim xalq sənəti sahələri üzrə bölmələrin fəaliyyəti davam etdirilib. “Dizayn Holdinq” Kommersiya Şirkətləri İttifaqının nəzdində misgərlik, dulusçuluq və ağac üzərində oyma peşələri üzrə emalatxana yaradılıb və kurslar təşkil edilib. Sədərək rayonunda fəaliyyət göstərən xalça emalatxanasının fəaliyyəti genişləndirilib, müəssisənin işçilərinə kurslar təşkil olunub. Təhsil Nazirliyi tərəfindən xalçaçı, çörək və qənnadı məmulatları ustası, arıçı, dərzi kurslarını 71 nəfər bitirib.

Muxtar respublikanın əmək bazarına daxil olan əcnəbi işçi qüvvəsinin keyfiyyət tərkibi nəzərə alınaraq, həmin sahələrin tələbatının yerli işçi qüvvəsi hesabına təmin edilməsi məqsədilə peşə hazırlığı kurslarının təşkili barədə maarifləndirici bukletlər hazırlanıb və işəgötürənlərə təqdim edilib.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində təşkil edilən müxtəlif peşələr üzrə kurslara, ümumilikdə, 36 nəfər məhkum cəlb edilib. Bu məqsədlə 17 nəfər məhkum əməyi ödənilməklə təsərrüfat işlərinə, 22 nəfər məhkum “Yaradıcılıq və istehsalat” binasında müxtəlif əl işlərinin düzəldilməsi işinə, 10 nəfər məhkum isə digər ödənişli işlərə cəlb edilib.

Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə 2017-ci ildə 17 nəfər kvota yerləri üzrə işə göndərilib, cəzaçəkmə müəssisəsindən azad olunmuş 1 nəfər, ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən və sosial müavinət alan şəxslərdən 93 nəfər işlə təmin olunub. Habelə aztəminatlı ailələrin özünüməşğulluğunun təmin edilməsi üçün 54 ailəyə 44 baş iribuynuzlu, 100 baş xırdabuynuzlu mal-qara verilib.

İl ərzində Şahbuz tikiş və Sədərək taxıl məhsulları emalı müəssisələrinin fəaliyyəti bərpa olunub, ümumilikdə, bu müəssisələrdə 10 nəfər, bununla yanaşı, peşə təhsilinə malik sağlamlıq imkanları məhdud 103 nəfər münasib işlə təmin edilib.

Bəhs olunan dövrdə nazirlik tərəfindən Novruz bayramı ilə əlaqədar sağlamlıq imkanları məhdud 8 qadın üçün sosial layihə həyata keçirilib. Belə ki, onlar tərəfindən yetişdirilən 1069 ədəd səməni bayram ərəfəsində haqqı ödənilməklə təhvil alınıb. Həmçinin “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” adlı sosialyönümlü layihəyə 7 nəfər xalçatoxuyan evdar qadın cəlb olunub. Sağlamlıq imkanları məhdud qadınların müvəqqəti məşğulluqlarının təmin edilməsi məqsədilə şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən 19 nəfərlə müqavilə bağlanılıb, toxunmuş 214 ədəd yun şərf və 2807 cüt yun corab təhvil götürülüb.

Sağlamlıq imkanları məhdud şəxslərin hazırladıqları əl işlərinin satışının təşkili mütəmadi olaraq davam etdirilib, nazirlik tərəfindən 12 nəfərin ümumi dəyəri 566 manat olan 37 rəsm və əl işinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 298 qadının 9251 manat dəyərində 1403 əl işinin satışı təşkil olunub.

Müvafiq dövr ərzində nazirlik tərəfindən icbari sığorta müqaviləsi bağlanılmadığı aşkar edilən 443 işçinin siyahısı Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə göndərilib, Dövlət Sosial Müdafiə Fondu tərəfindən muxtar respublika üzrə 4535 nəfər sosial sığorta şəhadətnaməsi ilə təmin olunub. Dövlət Miqrasiya Xidməti tərəfindən isə iş yerlərində əməkçi miqrantların müvafiq iş icazəsinə malik olmaları araşdırılıb, onların qanunsuz əmək fəaliyyətinə cəlb edilməsinin qarşısını almaq üçün işəgötürənlər maarifləndirilib.

*Nazirlik tərəfindən 2018-ci ildə də qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi davam etdirilir.*

✍ **Muxtar MƏMMƏDOV**

# Muxtar respublikada müasir standartların tətbiqi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ötən il istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işini diqqətdə saxlamışdır. Bu dövrdə məhsulların 1559 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmiş, sertifikatlaşdırmaya dair elektron xidmət vasitəsilə daxil olmuş 438 müraciət icra edilmişdir. Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 259 qida istehsalı müəssisəsinə aylıq dövrlər üzrə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 1392 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların isə 82 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 160 halda laboratoriya analizləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası çərçivəsində aidiyyəti təşkilatların nümayəndələri ilə birlikdə Culfa, Ordubad, Şərur, Şahbuz şəhərlərində, Babək qəsəbəsində, Şahbuz rayonunun Kolanı kəndində və Batabat yaylağında, Culfa rayonunun Dəmirli yaylağında, Ordubad rayonunun Sabirkənd kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, 27 təsərrüfat subyektindən götürülmüş bal nümunələrinin laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Arıçılıq məhsullarının istehsalı üçün 1 halda əmtəə nişanı qeydiyyata alınaraq ekspertizasına başlanılmış və bal məhsullarının 3 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmışdır.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə il ərzində 722 təsərrüfat subyektində 3205 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılmış, natamam tibbi müayinədən keçmiş 2223 işçi tibb müəssisələrində müayinələrdən keçmələri üçün maarifləndirilmiş və tam tibbi müayinə təmin edilmişdir. Komissiya tərəfindən 616 təsərrüfat subyektində 2316 obliqat qrup işçilərdən qan nümunələri götürülmüş və müvafiq tibbi nəzarət təmin olunmuşdur. 106 məktəbin bufetində, 10 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 18 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 19 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmışdır. Məktəbli və tələbə geyim formaları istehsal edən 4 təsərrüfat subyektində istifadə olunan parçaların keyfiyyət göstəriciləri, xüsusilə sintetiklik həddi yoxlanılmış, texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğundan istehsalda istifadəsinə icazə verilmişdir.

Xarici bazarlara çıxış imkanına malik məhsulların ixracının dəstəklənməsi çərçivəsində müvafiq işçi qrupu müəssisələrdə olmuş və istehsal olunan məhsulların ixrac ediləcək ölkələrə uyğun markalanması üçün tədbirlər görülmüşdür. İdxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət edilmiş, məhsulların üzərinə Azərbaycan dilində zəruri məlumatların vurulması təmin olunmuşdur. Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 118 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinq aparılmış, 38 müəssisədə istehsal olunan məhsulların etiketlərində orfoqrafik səhvlərin olduğu və standartların tələblərinin pozulduğu aşkarlanmışdır. Ötən il ərzində standartların tələblərinə uyğun olmayan 5896 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz, kontrafakt məhsul satışdan çıxarılmışdır.

Payız-qış mövsümünə hazırlıq çərçivəsində Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 122 təsərrüfat subyektində müşahidə xarakterli təkrar monitorinqlər aparılmışdır. Bu zaman sənaye üsulu ilə hazırlanmayan 45 qaz başlığı satışdan çıxarılaraq götürülmüş, 429 qaz sobası isə dəm qazına qarşı təhlükəsizlik sistemi olmadığı üçün istehsalçı ölkəyə geri qaytarılmışdır.

Ailə təsərrüfatlarında istehsal olunan məhsulların markalanmasına köməklik göstərilməsi üçün yeni etiket layihələrinin hazırlanması və ailə təsərrüfatlarına çatdırılması təmin edilmişdir. Məhsulların emalı və qablaşdırılması üzrə Şərur rayonunda 95 ailə təsərrüfatı nümayəndəsinin iştirakı ilə tədbir keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikanın Futbol Federasiyasında ötən ilin yekunları müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası 2017-ci ilin yekunları və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş yekun iclas keçirib.***

İclası giriş sözü ilə açan federasiyanın sədri Səbuhi Şahverdiyev bildirib ki, Azərbaycanda idmanın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ölkə başçısı tərəfindən ulu öndərin siyasətinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Yaradılan müasir idman infrastrukturu respublikamızda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə şərait yaradıb.

Federasiyanın sədri vurğulayıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafına da xüsusi diqqət yetirilir. Hər il istifadəyə verilən onlarla tikililər arasında idman obyektləri də yer alır. 2002-ci ildə idman federasiyalarının yaradılması muxtar respublikada idmanın inkişafına öz töhfəsini verib. Bu federasiyalardan biri də Futbol Federasiyasıdır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində hər ilin əvvəlində hazırlanan və təsdiq edilən təqvim planına uyğun olaraq nəzərdə tutulan bütün idman yarışlarının keçirilməsinə nail olunur. Geridə qoyduğumuz il ərzində federasiya bir sıra uğurlar qazanıb və futbolun muxtar respublikada kütləvi hal alması üçün müəyyən addımlar atıb.

Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov çıxış edərək qeyd edib ki, ən geniş yayılmış idman növlərindən biri sayılan futbol sahəsində də ötən il muxtar respublikamızda ölkə əhəmiyyətli tədbirlər həyata keçirilib. Bu tədbirlər sırasında futbol üzrə Azərbaycan kubokunun final qarşılaşması 2017-ci ilin ən əlamətdar idman hadisələrindən biridir. Həmçinin 25-30 may tarixlərdə Naxçıvan Muxtar Respublika Stadionunda ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" uğrunda turnir də respublika futbol ictimaiyyətinin diqqətini ikinci dəfə muxtar respublikamıza yönəldib. Sevindirici haldır ki, turnirdə muxtar respublikamızı təmsil etmiş "Araz-Naxçıvan" komandası da uğurlu nəticə göstərərək yarışın mükafatçıları sırasına düşməyi bacarıb.

Nazir diqqətə çatdırıb ki, ötən ilin mart ayında mini-futbol meydançalarında AFFA-nın grassroots layihəsinə əsasən baş tutmuş masterklaslar, həmçinin İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilmiş Açıq əyləncəli futbol məktəbinin açılış mərasimi futbolun muxtar respublika ərazisində təbliği və kütləviliyinin təmin olunması baxımından əhəmiyyətli hadisədir. Sözügedən tədbirlərdə 500-dən çox məktəbli və yeniyetmənin iştirakı futbolun Naxçıvan ərazisində gələcək inkişafı baxımından böyük perspektiv vəd edir.

Sonra çıxış edən federasiyanın sədr müavini Hafiz Əliyev 2017-ci ildə təşkil edilən yarışlar barədə məlumat verib.

Sonda 2018-ci ildə qarşıda duran vəzifələr müzakirə edilib.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 22 fevral 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 5325 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 67,66 kvadratmetr yaşayış, 16,81 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 19 200 | 960 |
| 2. | 1083 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 71,8 kvadratmetr yaşayış, 21,6 kvadratmetr qeyri-yaşayış, 41,04 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 29 100 | 1 455 |
| 3. | 1 mərtəbəli, 3 otaqlı, 128,25 kvadratmetr ümumi, 81,0 kvadratmetr yaşayış, 47,25 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Siyaqut kəndi | 28 200 | 1 410 |
| 4. | 900 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 48,6 kvadratmetr yaşayış, 186,32 kvadratmetr qeyri-yaşayış, 10,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Məmmədsabir kəndi | 25 000 | 1 250 |
| 5. | 1522,3 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 249,2 kvadratmetr yaşayış sahəsindən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Qarahəsənli kəndi | 21 000 | 1 050 |
| 6. | 1952 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 97,63 kvadratmetr yaşayış, 46,64 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Zeyvə kəndi | 34 900 | 1 745 |
| 7. | 1488 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 33,6 kvadratmetr yaşayış, 23 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur şəhəri, Hüseyn Cavid küçəsi 8 | 35 300 | 1 765 |
| 8. | 3193 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 59,94 kvadratmetr yaşayış, 54,89 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Badaşqan kəndi | 37 000 | 1 850 |
| 9. | 1984 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kvadratmetr yaşayış, 21,6 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 12 000 | 600 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 19 fevral 2018-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 22 fevral 2018-ci il tarixdə, saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan şəhəri *"Gənclər paytaxtı"* olmağa namizəddir

"Gənclər paytaxtı" seçimi "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq müsabiqə yolu ilə həyata keçirilir. Həmin proqramın müvafiq bəndinə əsasən hər il ölkənin bir rayon və ya şəhərinin "Gənclər paytaxtı" elan edilməsi nəzərdə tutulub. Bu, yerlərdə gənclərlə işin daha da canlandırılması məqsədilə həyata keçirilir. "Gənclər paytaxtı – 2018"in seçimlərinə artıq start verilir.




Bu müsabiqədə Naxçıvan şəhəri də namizəd şəhərlər siyahısındadır. Artıq xeyli müddətdir ki, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən sözügedən müsabiqə ilə bağlı kompleks hazırlıq tədbirləri həyata keçirilir. Layihə ilə əlaqədar nazirliyin sifarişi və dəstəyi əsasında xüsusi tanıtım videoçarxları hazırlanaraq Naxçıvan televiziyasında, elektron informasiya resurslarında nümayiş olunub və gənclər arasında böyük maraqla qarşılanıb. Həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Naxtel" mobil operatoru ilə bağlanmış müqavilə əsasında mobil istifadəçilərin müsabiqə ilə bağlı ətraflı məlumat əldə edə bilməsi üçün toplu mesaj xidməti istifadəyə verilib. Bundan əlavə, layihə ətrafında kütləviliyin təmin edilməsi məqsədilə nazirlik tərəfindən müsabiqə və Naxçıvan şəhəri haqqında zəruri məlumatları əks etdirən təqvim, buklet və əlfəcinlər hazırlanaraq Naxçıvan şəhərində yerləşən müxtəlif iaşə və ticarət mərkəzlərinə paylanılıb.

Cari il üzrə İslam mədəniyyətinin paytaxtı elan edilməsi Naxçıvan şəhərinin daha bir üstünlüyü sayıla bilər. Ərazisində kifayət qədər tarixi əhəmiyyətli memarlıq abidələri mövcud olan Naxçıvan şəhəri İslam mədəniyyət mərkəzi kimi də xüsusi əhəmiyyət daşıyır. Müsabiqənin mahiyyətinə nəzər salsaq, Azərbaycan gəncliyi üçün indiki məqamda qoca Şərqin və İslam mədəniyyətinin müasir şəhərsalma elementlərini və ən qədim tarixin nümunələrini özündə əks etdirən Naxçıvan şəhəri ən ideal seçim sayıla bilər. Naxçıvan şəhərində hazırda 3 ali, 3 orta ixtisas, 17 tam orta təhsil müəssisəsi, 13 muzey, 3 teatr, 1 kinoteatr, 7 konfrans-təlim zalı, 9 mehmanxana, idman kompleksi, gənclər evi, sərgi salonu fəaliyyət göstərir. Bundan əlavə, gənclərin istirahətlərinin səmərəli təşkil olunması üçün Heydər Əliyev parkı, "Əyləncə mərkəzi", "Əyləncə adası" kimi istirahət məkanları və çoxsaylı kafe-restoranlar mövcuddur. Bütün bunlar Naxçıvan şəhərinin mədəniyyət tədbirlərinin mərkəzi kimi tanınmasında mühüm rol oynayır.

Qeyd edək ki, səsvermə 25 yanvar saat 00:01-dən 31 yanvar saat 23:59-dək davam edəcək və səsvermə ***www.genclerpaytaxti.az*** saytı vasitəsilə həyata keçiriləcək. Yaşadığı yerdən, vətəndaşlığından, yaşından, milliyyətindən asılı olmayaraq, hər kəs Azərbaycanın "Gənclər paytaxtı"nın seçilməsində bərabər hüquqla iştirak edə bilər. Açıq, şəffaf, bərabər olmaqla, 3 prinsip əsasında aparılan səsvermə zamanı verilən hər səs dərhal nəzərə alınır və şəhərin reytinqini bir xal artırır. Səsvermə başa çatdıqdan sonra ən çox səs toplamış şəhər (rayon) qalib seçilir. Əgər Naxçıvan şəhərini gənclər paytaxtı görmək istəyiriksə, ***www.genclerpaytaxti.az*** saytına daxil olub Naxçıvana səs verək!

**Ceyhun MƏMMƏDOV**

*Yeni nəşrlər*

## Cəlaləddin Rumi və Şəms Təbrizi gənc tədqiqatçının araşdırmasında

***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının müdiri Fariz Əhmədov uğurlu tədqiqatlar apararaq "Nə olursan ol, yenə gəl" adlı kitab çap etdirib. Universitetin Elmi Şurası tərəfindən çapa tövsiyə olunan kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Mehdiyev, rəyçiləri isə filologiya üzrə fəlsəfə doktorları, dosentlər Sədaqət Nemətova və Yusif Hüseynovdur.***




Günümüzdə Mövlana Cəlaləddin Rumi və Şəms Təbrizi yaradıcılığı üzərində bir çox ziyalılar tədqiqat işləri aparıb. Fariz Əhmədovun "Nə olursan ol, yenə gəl" kitabı da bu mövzuya həsr olunan maraqlı tədqiqat işidir. Böyük mütəfəkkir Cəlaləddin Rumi və Şəms Təbrizinin həyatı, mühiti, fəlsəfəsi və onların söylədikləri qiymətli, həmişəyaşar öyüd və nəsihətlərin toplandığı bu kitab, əsasən, gənc nəslin bəhrələnməsinə və öyrənməsinə xidmət edir.

Son illərdə bütün dünyada olduğu kimi, Azərbaycanda da Mövlananı daha yaxından tanımaq və onun hikmətlərindən yararlanmaq cəhdləri çoxalıb. Ölkəmizdə bu istiqamətdə aparılan işlərin, nəşr edilən kitab və məqalələrin sayının artması sevindirici haldır. Yeni nəşrdə də yolları və illəri bir qurşaq kimi belinə dolayaraq yetişən, vəcd və təmkini özündə birləşdirən Mövlananın həm yaşarkən, həm də vəfatından sonra qənaət sahibi olan bir Haqq dostu, həyata və ölümə, zamana və məkana yenilməyən bir alim olduğu əhatəli şəkildə əks olunub. Xalqın qəlbinə yol tapmaq üçün şeir və musiqi dilini İlahi bir səsləniş halına gətirdiyi əsərlərdən biri olan "Nə olursan ol, yenə gəl" adlı kitab ağıl və idraka səslənərək hər bir insanın ruh dünyasına xoş təsir bağışlayır. Kitab yetişməkdə olan gənc nəsil, eləcə də Mövlana Cəlaləddin Ruminin yaradıcılığına müraciət edən tədqiqatçılar üçün qiymətli bir əsərdir.

**Arzu ABDULLAYEV**
***tarix üzrə fəlsəfə doktoru***

***İtmişdir***

Yaycılı İshak Muharrem oğlunun adına olan Naxçıvan şəhəri, "11-ci" məhəllə 45 nömrəli evin 15779 inventar nömrəli texniki pasportu və MH-0032989 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Ələsgərov Qurban Hüseyn oğlunun adına 20 iyun 1981-ci ildə verilmiş AZ-038488 seriya nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1490. Sifariş № 77